

# HƏQİQƏT BİZİMLƏDİR

*Aydın Qarabağlı (Aydın Babaş oğlu Məmmədov) 1933-cü ildə Yuxarı Qarabağın Xankəndi şəhərində anadan olmuş, Nizami adına 4 saylı orta məktəbi bitirmiş, hərbi qulluqdan sonra təhsilini ADU-da davam etdirərək jurnalist ixtisası almışdır. Azərbaycan və rus dillərində çıxan respublika dövrü mətbuatında (qəzet və jurnallarında) toponimiyaya (coğrafi adlara) aid və bədii yazıları müntəzəm çap olunur. Beş kitabın ("Coğrafi adların sirri", Bakı 1969, "Turistskimi tropami Azerbaidjana" Bakı 1988, "Qədim və indiki Abşerona səyahət", Bakı 2006, "Qarabağ, onun qədim tayfaları və toponimləri", Bakı 2008 və "Azərbaycanın Qarqar uruqları və amazonlar", Bakı 2016) müəllifidir. "Üzeyir bəy Hacıbəyli və onun ləyaqətli nəsil davamçıları" müəllifin 6-cı elmi, bədii, publisistik əsəridir. "Qarabağ, onun qədim tayfaları və toponimləri" elmi-kütləvi əsərinə görə "Qızıl qələm" mükafatına layiq görülmüşdür.*

*Aydın Qarabağlı Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.*

### Ön söz

Təbii olaraq bu kitabın meydana gəlmə tarixçəsi də oxucunu maraqlandırır. Qarabağ Azərbaycan icmasının növbəti görüşündə Respublika Milli Məclisinin deputatı Aydın Mirzəzadənin ərsəyə gətirdiyi "Qarabağ düyünü" kitabının təqdimatında onun bir nüsxəsi də müəllifin imzası ilə mənə şəxsən verildi. "Üzeyir bəy Hacıbəyli və onun ləyaqətli nəsil davamçıları" əsərim üzərində uzun müddət tədqiqat apardığıma görə hörmətli xalq elçisinin kitabını vaxtında oxumağa imkan olmadı. 2021-ci ilin ortalarında kitabı vərəqləməyə başlayanda Ermənistanın eks-prezidenti Levon Ter-Petrosyanın "Mövqe" və "Müzakirə predmeti" başlıqlı yazılarını nəzərdən keçirəndə, etiraf edim ki, şok vəziyyətinə düşdüm. Onun utopik mifdən köklənmiş yazısından belə çıxır ki, erməni-hay icması, daha doğrusu, sakinləri (xalqı yox) "... üç min il o, (DQMV-nin ərazisini nəzərdə tutur - AQ) ermənilərin məskunlaşdığı yer olmuş, üç min il ərzində də ermənilərin məskunlaşdığı yer olmalıdır..." - sərsəm sayaqlama, uydurma, cəfəngiyyat məni Xankəndidə doğulmuş, onun Nizami adına 4 saylı orta məktəbini bitirmiş yerli-köklü qarabağlı kimi hövsələdən çıxartdı və xeyli müddət bu durumda yaşadım. Nəhayət, eks-prezident Levon Ter-Petrosyana, ondan da irəli gedən ölkənin baş naziri N.Paşinyana və onlar kimi düşünən erməni-hay "liderləri"nə tarixi, elmi şəkildə, emosiyasız, tutarlı cavab ünvanlamağı, saxtakar erməni-hay tarixçilərinin və sadə, zəhmətkeş erməni-hay xalqına müraciət etməyi qərara aldım.

Və öncə də Azərbaycan Respublikası Milli Məclisinin ləyaqətli, vətənpərvər deputatı Aydın Mirzəzadəyə, erməni-hay liderlərinin çağdaş durumla, amalla yaşamalarını qələmə alıb ifşa etdiyinə və onları biz Azərbaycan türklərinə-oxuculara çatdırdığına görə dərin minnətdarlığımı bildirirəm.

Eyni zamanda zəhmət çəkib mənim publisistik yazıma elmi rəy verən tarix elmləri doktoru, AMEA Qafqazşünaslıq İnstitutunun Ermənişünaslıq şöbəsinin müdiri Qasım Hacıyeva, elmi redaktorun, türkoloq alim, professor Minaxanım Təkləliyə (Nuriyevaya)və təmkinli redaktorum Fariz Çobanoğluna da dərin təşəkkürümü bildirirəm.

*(Davamı 15-ci səhifədə)*

# HƏQİQƏT BİZİMLƏDİR

(Əvvəli 5-ci səhifədə)

## Rəy

Müəllif Qarabağda son zamanlarda görüb-eşitdiyi, şahidi olduğu hadisələri, Qarabağın gəlmə sakinləri olan ermənilərin törətdiyi vəhşiliklərdən, qanlı cinayətlərdən bəhs etmişdir. Müəllif öz fikirlərini tarixdə ermənilər tərəfindən törədilən təxribatçı, cinayətkar əməlləri faktlarla və məntiqi arqumentlərlə şərg etmişdir.

Aydın müəllimin misal gətirdiyi hadisələrin inandırıcı olmasına şübhə yeri qalmır. Çünki erməni-hayların hər hansı məqsədə çatmaq üçün tarix boyu törətdikləri hər cür cinayətlər, vəhşiliklər, vandallıqları yüzlərlədir. Araşdırdıqca bunların erməni millətçiləri və kilsələrinin ümumi ümumi xarakteri üzə çıxır. Bu xarakter həm ermənilərin özlərinin əleyhinə işləyərək ifşa edir, həm də qonşulara qarşı törətdikləri hadisələrlə düşmənçiliyin dərəcəsini artırır. Artıq bu mənfur xüsusiyyət Ermənistan dövlətinin də siyasətinə təsir edir. Ermənistan əlverişli qonşuluq münasibətləri yaratmaq, region dövlətləri ilə müsbət əlaqələrin qurulmasına çalışmaq əvəzinə seperatçılıq, terror, narkotik maddələrin dövriyyəsinin genişləndirilməsi və digər cinayət xarakterli fəaliyyətlərlə özünütəcrid siyasəti yürüdür.

Bu baxımdan diqqəti çəkən problemlərdən biri kimi aktual olan bu mövzuya müxtəlif baxış bucaqlarından yanaşma bir sıra mətləblərin üstünü açır, baş verənlərin mahiyyətini anlamağa imkan verir, kimin kim olduğunu ortaya qoyur. Ermənilərin biri digərini təkzib edən “elmi fikirləri” günbəgün artır. Lakin bir həqiqət də var ki, nəinki başqa xalqların tədqimatçıları, hətta ermənilərin obyektiv düşünüənləri belə indiyə qədər yazdıqlarının uydurma olduğunu bildirir, etiraf edirlər. Vaxtilə akademik B.B.Piatrovskinin Ermənistan Elmlər Akademiyasına yazdığı geniş məktubu, son günlərdə erməni tədqiqatçı Filip Ekozyansın erməni tarix tədqiqatçılarının cəfəngiyyatlarını üzə çıxaran, ifşa edən yazılarını, müsahibələrini oxuyanlar dediklərimizin mənasını yaxşı anlayarlar.




Aydın Məmmədovun fikirləri səlist, şərhləri inandırıcı, arqumentləri mənalı və əhəmiyyətlidir. Aydın müəllimin erməni yalanlarının ifşası üçün lazımlı olan “Erməni-hay xaqlına, onun rəhbərlərinə müraciət (erməni-hay yalanlarına, uydurmalarına və saxtakarlığına tarixi, elmi cavab)” adlı kitabın çap olunmasını məsləhət bilirəm.

***Qasım HACIYEV,***
***tarix elmləri doktoru,***
***AMEA Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri***